# Kiçik məktəbin uğurları



**“Bu gün məktəbimiz və ədəbiyyatımız necədirsə, sabah millətimiz də elə olacaq”. Bu müdrik kəlamı böyük Azərbaycan şairi Hüseyn Cavid təxminən 80 il əvvəl yazıb. Elə bu kəlmələrin yaratdığı işıq selinin iziylə gedib qabaqcıl təhsil ocağı olan bir kənd məktəbindən, onun uğurlarından söhbət açacağıq...**

Ağsu rayonundakı Musabəyli kənd orta məktəbinin direktoru Afaq Abdullayeva çox gəncdir. Gənc olmasına baxmayaraq, məktəbə rəhbərlik etməyə başladığı gündən keçən qısa zamanda təhsildə böyük uğurlar qazanılıb. Maraqlısı isə odur ki, Afaq xanım özü də bu məktəbin yetirməsidir, sələflərinin ona etibar etdiyi estafeti şərəflə daşıyır.

Abdullayeva Afaq Cabbar qızı 1988-ci il oktyabrın 17-də Ağsu rayonundakı Musabəyli kəndində anadan olub, orta məktəbi də həmin kənddə bitirərək 2006-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika fakültəsinə qəbul olub, 2010-cu ildə universiteti bitirdikdən sonra, elə həmin il məzunu olduğu Musabəyli kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlayıb. 7 il bu şərəfli peşəni sevə-sevə tədris etdiyi fənnin incəliklərini, sirlərini şagirdlərinə aşılamağa çalışıb.

2017-ci ildə “Direktorların işə qəbulu” müsabiqəsində iştirak edib öz şansını sınağa çəkir və uğurlu nəticə əldə edərək məzunu olduğu, müəllimlik fəaliyyəti göstərdiyi doğma məktəbinə direktor vəzifəsinə təyin edilib. Afaq xanım deyir: “Bu, böyük məsuliyyət və etimaddır. Vəzifəyə başladığım gün dövlətimizin, ölkə Prezidenti cənab İlham Əliyevin gənclərə, elmə, sənətə göstərdiyi şəffaf qayğısını qarşılıqsız qoymayacağıma özümə söz verdim. Bu gün təhsil işçilərinin qarşısında cəmiyyətə savadlı gənclər bəxş etmək, azərbaycançılıq ənənələrinə sadiq olan əsl vətəndaşlar yetişdirmək kimi vəzifələr durur. Bir məktəb rəhbəri kimi, birgə işlədiyim kollektivi də bu ruhda kökləməyə, uğurlu nəticələr əldə etməyə çalışıram”.

Hər bir məktəbin uğur açarı ayrı-ayrı fənlər üzrə ixtisaslı, savadlı kadrların olmasıdır. Bu mənada son iki ildə məktəbə “Müəllimlərin işə qəbulu” müsabiqəsindən keçərək vakant yerlərə 7 gənc və savadlı müəllim işə qəbul olunmuşdur.

Son dərəcə tələbkar, insana hörmət və qayğı ilə yanaşan Afaq müəllimin: “Şagirdin biliyi mənim üçün ən böyük mükafatdır” ifadəsini müəllimlər də, şagirdlər də yaxşı bilir. Bu isə o deməkdir ki, heç kəsə güzəşt yoxdur. Hazırda məktəbdə 77 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 21 müəllim məşğul olur. Məktəbin kiçik, şagird sayının az olmasına baxmayaraq, məktəbin uğurları da az deyil. Belə ki, 2018-2019-cu tədris ilində məktəbi 8 nəfər bitirmiş, onlardan 4-ü ali məktəbə qəbul olunmuşdur. Zərifə Qədirli 594 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Çimnaz Heydərova 573 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Sadıq Əsədov isə 485 balla Azərbaycan Dövlət Neft Akademiyasının tələbəsi olmuşdur.

Ötən tədris ilində qəbul imtahanı ilə yanaşı, şagirdlər buraxılış imtahanı nəticələrinə görə də rayon üzrə I yerə çıxmışlar. Belə ki, şagirdlərdən Zərifə Qədirli və Çimnaz Heydərova buraxılış imtahanı üzrə ən yüksək bal olan 300 baldan 262 və 250 balla rayonda ən yüksək nəticə göstərmişlər. Bu iki məzun həm də məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. IX sinif şagirdi Duyğu Məmmədli buraxılış imtahanından hər üç fəndən əla qiymət almışdır.

Afaq müəllim: “Bunlar hamısı müəllimlərimizin əməyinin, kollektivin birgə səyinin nəticəsidir” - deyir. Bax, elə bu münasibət, bu cür yanaşma ona kollektiv arasında böyük hörmət qazandırır. Afaq müəllim deyir: “Uzun tarixi mübarizədən sonra müstəqillik qazanan, öz milli dəyərləri üzərində əsaslı təhsil sistemi yaradan respublikamızda müəllimlik əməyinə diqqət və qayğı təsadüfi deyil. Axı, əsl milli sərvətimiz, gələcəyimiz olan gənc nəsil, məhz məktəb partası arxasında ilk həyat məktəbi keçir. Onu doğma Vətənə, xalqa xidmət ruhunda tərbiyə etmək, başladığımız yeni şəraitdən baş çıxarmaq bacarığı ilə silahlandırmaq bizim, ömrünü həsr etdiyimiz peşə sahiblərinin sənət borcu, amalıdır.

Kollektivimiz digər sahələri, fənn olimpiadaları, nazirin əmrlərindən irəli gələn tapşırıqlar, gənc istedadların üzə çıxarılması, müəllimlərə diqqət və qayğının göstərilməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s. diqqət mərkəzində saxlayır və bununla bağlı lazımi işlər görülməkdədir.

Müəllim əməyi çətin olduğu qədər də şərəflidir. Bu humanist xidmət meydanında, Afaq xanıma, başçılıq etdiyi məktəbə, onun cəfakeş pedaqoji kollektivinə Vətənimizin müstəqil inkişafı yolunda böyük uğurlar diləyirik!

**İlham PƏNAHOV,**
**“Respublika”.**

Respublika.- 2019.- 19 dekabr.- S.5.